# Şair Novruz Gəncəli haqda yeni kitab



"Xalq şairi olmayan, xalqın şairi" - bu maraqlı ad altında çap olunan yeni ktabın müəllifi son vaxtlar ədəbiyyat və incəsənət xadimlərimizin ömür və yaradıcılıq yollarına istər populyar, istər də elmi tərzdə işıq salan məqalə və kitabları ilə tanınan teatrşünas-tənqidçi Anar Burcəliyevdir. Kitab şair, dramaturq, tənqidçi, tərcüməçi, ssenarist və ictimai xadim Novruz Gəncəlinin (1921 -1995) anadan olmasının 100 illiyi ərəfəsində işıq üzü görüb.

"Bizim ədəbiyyat və incəsənət tariximizdə öz izi olan hər bir şəxsiyyətimizin adının, həyatının arxasında maraqlı, eyni zamanda, cəmiyyətimizə, onun mədəniyyətinə daim gərəkli olan mətləblər durur. Bu adamların yaradıcılığının indiki zəmanəmizlə, bugünkü mənəvi dəyərlər ilə səsləşməsi məsələsi də maraqlı elmi təhlillər üçün meydan açır. Adı daim rəvan şeir nümunələri, gözəl sözlü mahnılar, teatrlarımızın dram və komediya tamaşaları, dünya klassiklərinin tərcümə nümunələri ilə birgə çəkilən Novruz Gəncəli də onlardan biridir. Bu baxımdan, çalışmışam ki, bu kitab Novruz Gəncəlinin həyat və yaradıcılığını əks etdirməklə yanaşı, sənətşünaslarımız üçün daha bir məlumat mənbəyi halına gəlsin", - deyə müəllif bildirir.

Kitabın elmi redaktoru, fəlsəfə doktoru İmran Axundov, redaktoru isə Sailə Məhərrəmqızıdır.

**Z. MURADOV,**
**Gəncə**